# "Ağlıma ilk gələn balam, bir də bayrağım oldu..."

***– Həyətdə idim. Saat 11 olmazdı. Birdən elə bir gurultu qopdu ki, nə baş verdiyini ilk anda anlamadım. Bircə onu eşitdim ki, "ermənilər atdılar..." Ağlıma ilk növbədə gələn 1 yaşlı balam Zəhra, bir də bayrağım oldu. Toz-dumandan heç nə görünmürdü, ətrafa qaranlıq çökmüşdü. Bir təhər Zəhranın yatdığı beşiyi tapdım və bayrağı da götürüb çölə qaçdım. Başından axan qan ara vermirdi. Sağ olsunlar polis işçilərini, uşağı əlimdən alıb öz maşınlarına mindirdilər və təcili yardım xəstəxanasına apardılar...***



Xəyyam danışır, mənsə qulaq asıram. Adi bir fəhlədir, lakin damarlarında əsl azərbaycanlı qanı axır. Bütün varlığı ilə xalqına, elinə-obasına, doğma şəhərinə, Prezidentinə sadiq bir gəncdir...

– Doğrudan da, şəkillərdə sənin qucağında uşağın qundağı ilə bayraq da görünür, – deyirəm.

– Necə çəkiblər, bundan mənim xəbərim olmayıb. Həmin anda gözümə heç nə görünmürdü... Elə bilirdim balam qucağımda öləcək. Bayrağı isə Füzuli istiqamətində şəhid olan dostum Altun Məmmədovun elə həmin gün, yəni oktyabrın 4-də günortadan sonra dəfninə aparmalı idim. Əvvəla, bayrağımız elə balam Zəhra qədər mənə əzizdir. İkincisi, fikirləşdim ki, Allah eləməmiş, Zəhraya nəsə olsa, bayraqla dostumun dəfnində on dəqiqə də olsa iştirak edib sonra evə qayıdaram. Hər halda, 21 yaşlı dostum on aylıq körpəm ilə müqayisədə...

Bunları həyacanla, əlləri əsə-əsə mənə söyləyən Xəyyam bu yerdə göz yaşlarını saxlaya bilmir. Yaylığını çıxarıb üzünü örtür, gözlərini silir...Sonra da astadan Altun elə gözəl dost idi..." deyib yenidən qəhərə təslim olur.

– Zəhra indi hardadır, gedək bir görüşək, deməyimlə sanki toxdaqlıq tapır. Elə bil ki, bu söhbətdən, o dəhşətli günlərin ağır təəssüratlarından onu ayırdığım üçün sevinir:



– Bağçaya qoymuşuq. Sağ olsunlar, yaxşı insanları, öz balaları kimi baxırlar... Gedək.

...Şəhərin Gülüstan yaşayış sahəsində yerləşən 13 saylı uşaq bağçasına gəlmişik. Düzü, bu bağçada hərbi-vətənpərvərliklə bağlı görülən işləri hətta bir çox məktəblərdə, böyük təşkilatlarda belə görməmişəm. Hara baxırsan şəhid stendləridir, hansı uşağı dindirirsən, əsgər, şəhid, qəhrəmanlıq haqqında sənə şeir söyləyir. Bağçanın müdiri Pərvanə İmamquliyeva olduqca fəal, uşaqları öz balaları kimi sevən, onları lap kiçik yaşlarından Vətənə, torpağa bağlı insanlar kimi yetişdirməyə çalışır...

Zəhra ilə tanış oluram. Xəyyam danışır ki, nə vaxt saçlarını aralayıb yara yerinə baxmaq istəyən olanda "ermənini yada salmayın" deyir və sonra da "meymunu yada salmaq olmaz" deyərək gülür.

Üç yaşı oktyabrın 31-də tamam olacaq Zəhranın sifətində, başında o izlər açıq-aydın görünür. Baxırıq... bir söz deməsə də yenə gülür. Sonra da heç bizə demədən şəhidlərin stendinə tərəf qaçır, qarşısında dayanıb "indi şəklimi çəkin, bunlar mənim əmilərimdir" – deyir.

Zəhranın üz-gözündəki, başındakı izlər Ermənistan ordusunun xaincəsinə yaratdığı terrorun ilkin nişanələridir, Gəncəyə oktyabrın 4-də atdıqları birinci raket zərbəsinin törətdiyi yaraların yerləridir. O zaman Prezident Administrasiyasının xarici məsələlər şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində görün nə yazmışdı: "Nəsillər dəyişir, ancaq Ermənistanın Azərbaycan xalqına qarşı vəhşilikləri bitmir. Ermənistanın Gəncə şəhərinin məntəqələrinə raket hücumu nəticəsində bu on aylıq qız yaralanıb".

Şöbə müdiri körpə Zəhranın həmin gün çəkilmiş şəklini vermiş və günahsız insanların Ermənistan tərəfindən nə kökə salındığını bir daha nümayiş etdirmişdir.

Xəyyam dövlətimizdən, ölkə Prezidentindən çox razılıq edir. Deyir ki, bizə bir müddət sonra hər cür şəraiti olan ikiotaqlı mənzil verdilər, digər yardımlar göstərdilər. Balamı ölümün pəncəsindən qurtaran, çətinliklə də olsa, qanaxmanı dayandıran, müalicə edən həkimlərdən necə razı qalmayım?! Bilmirəm, fikir vermisinizmi, internetdə var, Bəxtiyar adlı balaca bir uşaq üz-gözü qanın içində baxıb gülür. Bu şəklə hər dəfə baxanda həmin gülüşü bütöv Gəncənin, Azərbaycanın gülüşü, istehzası kimi qəbul edirəm.

Xəyyamın dediyi Bəxtiyar haqqında da növbəti nömrələrimizin birində yazı vermək niyyətindəyik. Hazırda məktəbdə oxuyur.

...Zəhradan və digər qayğısız körpələrdən ayrılıram. Hamısı əl edir, şən səsləri ilə, xorla "sağ olun!" deyirlər. Evə qayıdıram. Zəhranın, digər balaların səsləri qulaqlarımda eşidilsə də Gəncədə Ermənistan ordusunun törətdiyi vəhşiliklər nəticəsində həyatlarını itirən körpələr – Nigar və Narin Əsgərova bacıları, Mədinə Şahnəzərli, Orxan və Məryəm Əmrahlı, Artur Mayakovun çöhrələri gözlərim önündən getmir. Onların həyatını xilas etmək mümkün olmadı və nə baş verdiyini heç bilmədən bu dünyadan köçüb getdilər...

Bəli, 2020-ci ilin oktyabr ayında Ermənistan cəbhədən 60-70 kilometr aralıda yerləşən, Azərbaycanın ikinci böyük şəhərini – ulu Gəncəni raket və ağır artilleriyadan atəşə tutdu, nəticədə 26 dinc sakin həlak oldu. Zəhra kimi yaralanan, şikəst olan azyaşlıların sayı isə şəhərdə 32 nəfərə çatdı.

…İllər keçəcək, körpələrimizə vurulan yaraların izləri, bunu törədən Ermənistanın işğalçı qüvvələrinin iç üzünü bir daha açıb dünyaya göstərəcək və o zaman elə zəhraların, bəxtiyarların təkcə gülüşü, istehzası onlara bəs edəcək. Bu, silahdan, atdıqları raketdən də qat-qat güclü və təsirlidir…

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***



Xalq qəzeti .- 2022.- 13 oktyabr.- S.7.